Bayramov, V. Böyük zəfərdən böyük qayıdışa doğru / Vaqif Bayramov // Xalq qəzeti. - 2021. - 18 fevral. - № 37. - S. 1; 5.

Bizim Qələbəmiz tarixi Qələbədir. Biz tarixi ədaləti bərpa etdik. Biz öz haqlarımızı bərpa etdik, biz şəhidlərimizin qanını aldıq, biz düşməndən qisas aldıq və qayıtmışıq. İndi isə bərpa işləri gedir və gedəcək. Mən demişəm, biz bu bölgəni – Qarabağı cənnətə çevirəcəyik. Artıq bütün göstərişlər verilib. Bütün işlər görülür, planlı şəkildə görüləcək və biz bundan sonra bu torpaqlarda əbədi yaşayacağıq. Heç kim bizi bundan sonra bu torpaqlardan tərpədə bilməz. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

İlham ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Prezident İlham Əliyevin fevralın 14-də işğaldan azad olunan torpaqlarımıza növbəti səfəri çərçivəsində həyata keçirilən təməlqoyma tədbirləri otuz ilə yaxın bir müddətdə köçkün həyatını yaşayan yüz minlərlə həmvətənimizin tezliklə Qarabağa qayıdacaqlarının, bölgədə təhlükəsiz, rahat həyat yaşayacaqlarının diqqət mərkəzində saxlanılmasının ifadəsi idi.

Yol boyunca Qubadlı rayonunun işğaldan azad edilən kəndləri barədə danışan Prezident İlham Əliyev dedi: "İndi isə Mərdanlı kəndinə daxil oluruq. Günəş də çıxır, yolumuzu işıqlandırır. Mən demişdim ki, azad edilmiş torpaqlarda bütün bərpa işləri ən yüksək səviyyədə təşkil olunacaq. Dağılmış bütün bu kəndləri biz bərpa edəcəyik. Baxın, mənfur düşmən bizim bütün yaşayış məntəqələrimizi nə günə salıb. Vandallar, barbarlar işğal dövründə bütün binaları söküblər, talayıblar, daşları oğurlayıblar. Hamısını bərpa edəcəyik".

Erməni vandallarının xarabazara çevirdikləri əzəli-əbədi yurdlarımızın bərpası, inkişaf axarına qovuşması, sosial-iqtisadi dirçəlişi hazırda dövlətimizin qarşısında duran ən mühüm vəzifədir. Dövlətimizin başçısı hər zaman bütün məsələlərdə olduğu kimi, bu istiqamətdə də aydın planlara, strateji hədəflərə malikdir. Bu baxımdan "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də işğaldan azad olunmuş ərazilərə qayıdışla bağlı xüsusi bəndin yer almasının mühüm siyasi və iqtisadi əhəmiyyəti var.

Milli Prioritetlərdə öz ifadəsini tapan Böyük Qayıdış proqramı vətəndaşlarımızın işğaldan azad edilən ərazilərdə dayanıqlı məskunlaşmasında və həmin ərazilərin ölkənin iqtisadi sisteminə inteqrasiyasında körpü rolunu oynayacaq. Azərbaycanın regionda beynəlxalq nəqliyyat-logistika dəhlizinin bərpası istiqamətindəki təşəbbüsləri və həyata keçirdiyi layihələr ölkəmizin isə qlobal bazarlara çıxış imkanlarını artırmaqla yanaşı, düşməndən təmizlənən ərazilərin inkişafına da

əhəmiyyətli təkan verəcək.
Azərbaycanın tarixi qələbəsinin nəticələrinin möhkəmləndirilməsi və əbədiləşdirilməsi üçün işğaldan azad olunan Qarabağ bölgəsində əhalinin dayanıqlı məskunlaşması təmin edilməsi məqsədilə həmin ərazilər cəmiyyətin ən sağlam, müasir və abad yaşayış mühitinə çevriləcək, dayanıqlı məskunlaşma üçün müasir prinsiplərə əsaslanan komfortlu yaşayış mühiti yaradılacaq.
Milli Prioritetdə əksini tapan məsələlərin həlli, eyni zamanda, işğalçıdan təmizlənən ərazilərin ölkənin iqtisadi və sosial simasında tarixi mövqeyini bərpa edəcək. Yeni yanaşmaların, müasir innovasiyaların tətbiq edildiyi bu bölgə iqtisadi fəaliyyətin aparıcı həlqələrindən birinə çevriləcək, ölkənin digər regionlarına uyğun inkişaf səviyyəsinə malik olacaq.
Artıq bərpa-quruculuq prosesinə diqqətlə koordinasiya olunan tərzdə, vahid mərkəzdən idarə edilərək başlanılıb. Prezident bu torpaqlarda bütün işlərin ardıcıllıqla həyata keçiriləcəyini, birincisi, keçmiş məcburi köçkünlərin doğma yurdlara qayıdışı üçün ərazilərin minalardan təmizlənəcəyini, erməni vandallarına qarşı beynəlxalq səviyyədə təzminat davasının açılması üçün onların vurduqları ziyanın qiymətləndiriləcəyini, lazımi inventarlaşdırma, pasportlaşdırma işlərinin aparılacağını, əhalinin infrastruktur layihələrinin icra ediləcəyini xatırladıb. İlk gündən bu işlərin paralel şəkildə icrasına başlanılıb.
Ərazilərin bərpasında avtomobil yollarının salınması xüsusi önəm daşıyır. Çünki yol həm iqtisadi, həm də sosial baxımdan düşməndən təmizlənən torpaqlara yeni həyatın qaytarılmasını şərtləndirir. Bu mənada nəqliyyat infrastrukturunun bərpası, ilk növbədə, avtomobil yollarının çəkilməsi təsadüfi deyil.
Prezident İlham Əliyevin Füzulidən Şuşaya çəkilən 101,5 kilometrlik avtomobil yolunu "Zəfər yolu" adlandırması da təsadüfi deyil. Bu yolboyu torpaqların hər qarışına şəhid və qazilərimizin qanı qarışıb. Başqa sözlə, qəhrəman Azərbaycan Ordusu döyüşərək, şəhidlər verərək Şuşanı düşməndən azad edib, zəfər qazanıb. Odur ki, həmin yol Azərbaycan tarixində həm də şanlı qələbəyə aparan müqəddəs yol kimi qalacaq.
Hazırda "Zəfər yolu"nda işlər sürətlə gedir. Cəmi iki ay ərzində yol genişləndirilib, onun üçün torpaq yatağı inşa edilib. İndi məhz bu yoldan Şuşaya gediş-gəliş üçün istifadə olunur. Sentyabr ayınadək isə iki hərəkət zolaqlı yolun asfaltlaşdırılaraq istifadəyə verilməsi nəzərdə tutulur.
Tikinti işləri Füzuli şəhərindən başlayaraq yeni tras üzrə hazırlanan layihə əsasında aparılır. Bu tras iri yaşayış məntəqələrindən, həmçinin məşhur Topxana meşəliyindən yan keçməklə inşa edilir.
Yeni layihə aparılan araşdırmaların nəticələrinə əsasən tərtib olunub. Çətin relyefə malik ərazilərdə, dolaylarda tikiləcək körpü və tunellər hesabına yolun uzunluğunun 17 kilometrə qədər qısaldılaraq 84,6 kilometr təşkil edəcəyi planlaşdırılıb. İlkin hesablamalara görə, inşa ediləcək tunellərin ümumi uzunluğunun təqribən 3 kilometr olacağı da nəzərdə tutulub.
Artıq Şuşa şəhərinədək 101,5 kilometrlik tras üzrə 2 hərəkət zolağı enində olmaqla

xidməti yol istifadəyə verilib. Bu hissədə 2 hərəkət zolağı enində torpaq genişləndirilərək yol yatağı və yol əsası inşa edilib.
Füzuli-Şuşa avtomobil yolu inşasına artıq start verilmiş Füzuli Beynəlxalq Hava Limanı yaxınlığından keçir. Bu səbəbdən layihədə magistral yolu hava limanı ilə əlaqələndirmək məqsədilə yol qovşağının və aerovağzala giriş yolunun inşası da planlaşdırılır. Həmçinin yeni tras üzrə hazırlanan layihəyə Şuşanın məşhur İsa bulağınadək əlavə 2 kilometrlik yolun inşası da daxildir.
İsa bulağı yolu başlanğıcını yeni Füzuli-Şuşa avtomobil yolunun təqribən 82-ci kilometrindən götürəcək və Laçın-Şuşa-Xankəndi avtomobil yolunun uzunluğu 900 metr olan tunel vasitəsilə keçməklə inşa olunacaq.
Yeni Füzuli-Şuşa magistral avtomobil yolu başlanğıcını Hacıqabul-Bəhrəmtəpə-Mincivan-Ermənistan Respublikası ilə dövlət sərhədi magistral yolundan götürməklə Füzuli, Xocavənd, Xocalı və Şuşa rayonlarının ərazisindən keçir.
Yolun tikintisinin qısa müddət ərzində yekunlaşdırılması üçün layihə şərti olaraq 5 hissəyə bölünür. Hazırda Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin inşaatçıları tərəfindən yolboyu tikinti işləri həyata keçirilir. Bundan başqa, çətin relyefli ərazilərdə avtomobil yollarının inşasını bu sahədə böyük təcrübəyə malik “Kolin İnşaat” türk şirkəti reallaşdırır.
Dövlətimizin başçısının tapşırığına uyğun olaraq işğaldan azad edilən ərazilər üzrə Strateji Fəaliyyət Planı hazırlanır və bütün yaşayış sahələrinin bərpasının vahid konsepsiya əsasında həyata keçiriləcəyi nəzərdə tutulur. Hazırda Qarabağ bölgəsinin turizm marşrutları da işlənilir.
Dövlətimizin başçısının tapşırıqlarına əsasən, işğalçıdan təmizlənən sahələrdə torpaq islahatının aparılması üçün yeni mexanizm və meyarlar hazırlanır, torpaqların su ehtiyatlarından səmərəli istifadə məsələləri araşdırılır, Qarabağ bölgəsinin “yaşıl enerji” zonasına çevrilməsi, həmin ərazilərdə su mənbələrindən istifadə edilərək su elektrik stansiyalarının tikintisi imkanları nəzərdən keçirilir, keçmiş köçkün əhalinin öz dəbə-baba yurdlarına qaytarılması ilə əlaqədar xüsusi proqram tərtib olunur. Şübhəsiz ki, bu zaman işğaldan azad edilən ərazilərin bərpası zamanı hər bir iqtisadi rayonun təbii-iqlim şəraiti və profili də diqqətdə saxlanılır.
Füzuli Beynəlxalq Hava Limanının tikintisi işğaldan azad edilən ərazilərdə, ilk növbədə, start götürən layihələrdən biridir.

Aeroportun inşasının baş podratçısı olan “AzVirt” şirkətinin məlumatına görə, hazırda ərazidə minalardan təmizlənmə işləri gedir. Bu, yekunlaşandan sonra tikinti prosesinin sürətlənəcəyi gözlənilir. Qarşıdan gələn yaz aylarında işin fasiləsiz, gecəli-gündüzlü aparılacağı nəzərdə tutulur.
Füzuli rayonunda Beynəlxalq Hava Limanının təməli bu il yanvarın 14-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən qoyulub. Təməlqoyma zamanı dövlət başçısı sözügedən hava limanının əhəmiyyətini vurğulayaraq deyib: “Bu, azad edilmiş bölgələrimizin inkişafı üçün çox önəmli bir layihədir. Füzuli

Beynəlxalq Hava Limanı bu il istifadəyə verilməlidir. Hər halda uçuş-enmə zolağı bu il istifadəyə verilməlidir. Hava limanının binası isə ola bilər bu il, ola bilər gələn il istifadəyə veriləcək. Bu hava limanının əsas məqsədi xarici qonaqların Şuşaya gəlişini təmin etməkdir. Çünki buradan Şuşaya olan məsafə o qədər də böyük deyil. Nəzərə alsaq ki, bu gün Füzuli-Şuşa dördzolaqlı və bəzi yerlərdə altızolaqlı yeni avtomobil yolunun təməli qoyulub, xarici qonaqlar Füzuli Beynəlxalq Hava Limanına gələrək, çox rahat və qısa müddət ərzində Şuşa şəhərinə gedə biləcəklər".
Uçuş-enmə zolağının uzunluğu 3 min metr olacaq bu hava limanı beynəlxalq standartlara uyğun infrastrukturla təchiz ediləcək. Burada təyyarələrin qəbulu və yola salınması, sərnişinlərin rahatlığı üçün hər cür şərait yaradılacaq.
Hazırda minalardan təmizlənən ərazilərdə uçuş-enmə zolağının özülünün hazırlanması üçün torpaq yatağının çıxarılması işləri həyata keçirilir. Uçuş-enmə zolağının işıq-siqnal sistemləri, eləcə də radionaviqasiya və meteoroloji avadanlıqlarla təchiz edilməsi üçün xarici şirkətlərlə müqavilələr bağlanır.
İşğaldan azad olunmuş ərazilərdə beynəlxalq standartlara cavab verəcək daha bir aeroportun inşası da nəzərdə tutulur. Bunun Kəlbəcər və Laçın rayonlarından birinin ərazisində tikilməsi planlaşdırılır. Hazırda hava limanının yerini müəyyənləşdirmək üçün araşdırmalar aparılır.
Hər iki aeroport Qarabağ zonasında genişmiqyaslı bərpa işlərinin aparılmasını, yüklərin daşınmasını, turizmin inkişafını sürətləndirəcək.
Başqa bir mühüm tikinti isə Göygölün Toğanalı kəndindən başlayaraq, Murovdağ silsiləsini keçməklə Kəlbəcər-İstisu, Kəlbəcər-Laçın istiqamətində yolun çəkilişidir. Bu istiqamətdə artıq ilkin işlərə başlanılıb. Murovdağ silsiləsinə qədər ilk 16 kilometrlik hissədə torpaqlama işləri həyata keçirilib.
Hazırda yolun tikintisi layihələndirmə mərhələsindədir. Yolun 2-3 hərəkət zolaqlı olması nəzərdə tutulur. Enişli-yoxuşlu ərazilərdə 3, digər ərazilərdə isə 2 hərəkət zolaqlı olması planlaşdırılır.
Murovdağ çətin relyefə malik olduğuna görə, dağ silsiləsi tunellər vasitəsilə keçiləcək. Tunellərin uzunluğu 10-12 kilometr olacaq. Layihə üzrə dəqiqləşdirmələr aparılacaq.
Kəlbəcərə, həmçinin cənub istiqamətindən də yolun çəkilməsi nəzərdə tutulub. Belə ki, Ermənistan sərhədindən – Mincivan magistral yolundan Qubadlı-Laçın istiqamətində də yolun inşası ikinci texniki dərəcəli olacaq. Bununla da həm şimaldan, həm də cənubdan Füzuli-Şuşa yolundan əlavə, Laçın istiqamətində hərəkət etmək reallaşacaq. Bu isə gələcəkdə ümumilikdə regionun, turizmin, sənayenin inkişafı baxımından mühüm önəm daşıyacaq.
Qarabağın su təsərrüfatı komplekslərinin bərpası və inkişafı ilə bağlı da Tədbirlər Proqramı hazırlanaraq, artıq hökumətə təqdim edilib.
Proqramın əsas məqsədi uzun illər erməni təcavüzünə məruz qalan suvarılan torpaqların kənd təsərrüfatında istifadəsinə şərait yaratmaqdır. Sonrakı mərhələdə isə bu obyektlərin müasir səviyyədə yenidən qurulması və inkişafına nail olmaqdır. Tədbirlər Proqramının icrası nəticəsində Suqovuşan Hidroqovşağının və oradan su

götürən Tərtərçay magistral kanalların yenidən qurulması ilə işğaldan azad edilən rayonların və ətraf bölgələrin əkin sahələrinin suvarma suyu ilə təminatı yaxşılaşacaq.

Qarabağda bərpa-quruculuq tədbirləri sırasında ekoloji terrorun acı nəticələrinin aradan qaldırılması da xüsusi yer tutur. Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva tərəfindən Zəngilan rayonundakı Bəsitçay Dövlət Təbiət Qoruğunun ərazisində çinar ağacları əkilməsi, Bəsitçaya balıq buraxılması bunun bariz ifadəsidir.

Xatırladaq ki, düşmən işğal altında saxladığı dövrdə digər ərazilərdə olduğu kimi, Bəsitçay qoruğunda da ekoloji terror törədib. İşğalçı qoruğun meşəlik ərazisinin demək olar ki, yarısını məhv edib, ağacların kökünü, oduncağını yandırıb. Burada illərlə formalaşan təbii ekosistemin tarazlığına erməni vandalizmi nəticəsində ciddi zərbə vurulub.

Prezident İlham Əliyev erməni vəhşiliyi ilə bağlı deyib: “Bəsitçay Dövlət Təbiət Qoruğunda çinar ağacları əkdik. Bəsitçay qoruğu 1974-cü ildə ulu öndər Heydər Əliyevin tapşırığı ilə yaradılmışdır. Burada 100 hektardan çox sahədə nadir çinar ağacları dövlət tərəfindən qorunurdu. Bu, nadir çinar ağacları meşəsi idi. İşğaldan sonra mənfur düşmən çinarların böyük hissəsini kəsib, doğrayıb, talayıb və yandırıb. Bu, erməni vandalizminin növbəti əlamətidir. Bu gün Bəsitçay təbiət qoruğunun bərpasına start verildi.

Biz bu qoruğu bərpa edəcəyik. Əlbəttə ki, burada kəsilmiş ağacların yaşı təqribən 200-300 ilə bərabər idi. Ancaq hər halda öz borcumuzu yerinə yetirdik. Eyni zamanda, Bəsitçaya balıqlar da buraxdıq. Bəsitçay da çox gözəl çaydır. Ümumiyyətlə, bu bölgə çaylarla zəngindir. Tərtərçay, Xaçınçay, Bəsitçay, Bazarçay, Həkəri çayı və digər çaylar bundan sonra Azərbaycan xalqına xidmət edəcək. Mənfur düşmən işğal dövründə Tərtərçayın da suyunun qabağını kəsmişdir və bir neçə rayonumuzda yüz min hektardan çox torpaq susuz qalmışdır. Bizə qarşı ekoloji terror törədilmişdir”.

Doğma yurd-yuvalarından didərgin düşən soydaşlarımız bu gün Böyük Qayıdışın astanasındadırlar. Dövlətimizin başçısı İlham Əliyev işğaldan azad edilən rayonlara səfərləri zamanı etdiyi çıxışlarda səsləndirdiyi fikirlərdə də bu məqam xüsusi yer tutur. Azərbaycan Prezidenti vurğuladığı kimi, necə birlik, həmrəylik göstərib torpaqlarımızı azad etdik, həmin birlik sayəsində də bərpa, quruculuq işlərini həyata keçirəcəyik. Ərazilərimiz bərpa planına uyğun olaraq yenə də əvvəlki vəziyyətinə qayıdacaq, torpaqların potensial imkanından istifadə edilməklə regional inkişaf proqramlarının uğurlu icrası daha da sürətlənəcək, Qarabağ cənnət məkana çevriləcək.